Tibb və Sağlamlıq Elmləri Təhsili kafedrası

# İNKİŞAF STRATEGİYASI



Bu sənəd Azərbaycan Tibb Universitetinin Tibb və Sağlamlıq Elmləri Təhsili kafedrasının (TSET) fəaliyyətinin əsas inkişaf istiqamətlərini, hədəflərini və reallaşdırma məqsədlərini əhatə edir. Məqsədimiz kafedranın tədris, elmi-tədqiqat, metodiki və institusional fəaliyyətini beynəlxalq standartlara uyğun şəkildə gücləndirməkdir.

# DƏYƏRLƏRİMİZ

**G** ÜVƏN VƏ PEŞƏKARLIQ
**Ə** MƏKDAŞLIQ VƏ ETİK DAVRANIŞ
**L** İDERLİK VƏ DAVAMLI İNKİŞAF
**Ə** DALƏT VƏ SOSİAL MƏSULİYYƏT
**C** ƏMİYYƏTƏ XİDMƏT
**Ə** NƏNƏ VƏ YENİLİYİN VƏHDƏTİ
**K** EYFİYYƏTLİ TƏHSİL VƏ TƏDQİQAT




@ReallyGreatSite

# MÜNDƏRİCAT


01 Missiya və gələcəyə baxış

02 Kafedranın fəaliyyət istiqamətləri

03 Tədrisin keyfiyyətinin artırılması

04 Akademik heyətin peşəkar inkişafı

05 Tədris mühiti, innovasiya və rəqəmsal transformasiya

06 Elmi-tədqiqat, akademik fəaliyyət və davamlı inkişaf

07 Beynəlxalq və institusional əməkdaşlıq

08 Sosial məsuliyyət və cəmiyyətə töhfə

# MİSSİYA VƏ GƏLƏCƏYƏ BAXIŞ




## Missiya

Azərbaycan Tibb Universitetinin Tibb və Sağlamlıq Elmləri Təhsili kafedrasının missiyası tibb və səhiyyə ixtisasları sahəsində təhsil alan tələbələrin kompetensiyaya əsaslanan, etik dəyərlərə sadiq, tələbə mərkəzli və beynəlxalq standartlara uyğun şəkildə hazırlanmasına töhfə verməkdir. Kafedra müasir pedaqoji yanaşmalar, simulyasiya əsaslı təlim və obyektiv qiymətləndirmə metodları vasitəsilə tədrisin keyfiyyətinin davamlı inkişafını və milli səhiyyə sisteminin ehtiyaclarına cavab verən kadrların yetişdirilməsini hədəfləyir.

## Gələcəyə baxış

Tibb və Sağlamlıq Elmləri Təhsili kafedrası gələcəkdə Azərbaycan Tibb Universitetində və ölkə miqyasında tibb təhsili sahəsində innovativ yanaşmaların, simulyasiya və kompetensiya əsaslı modellərin tətbiqində aparıcı akademik mərkəzlərdən biri olmağı hədəfləyir.

Kafedranın gələcəyə baxışı:

- tibb və sağlamlıq elmləri təhsilində beynəlxalq akkreditasiya tələblərinə uyğun davamlı keyfiyyət təminatı sistemlərinin inkişaf etdirilməsi,
- simulyasiya, rəqəmsal texnologiyalar, VR/AR və süni intellekt əsaslı tədris alətlərinin tədris prosesinə mərhələli inteqrasiyası,
- müəllimlər üçün fakültə inkişafı və pedaqoji liderlik proqramlarının genişləndirilməsi,
- tibb təhsili üzrə elmi-tədqiqat, innovasiya və beynəlxalq əməkdaşlıqların gücləndirilməsi,
- cəmiyyətin sağlamlıq ehtiyaclarını nəzərə alan, sosial məsuliyyətli və etik dəyərlərə əsaslanan təhsil modelinin təşviqidir.

# MƏQSƏDİMİZ

Gələcəkdə təkcə tədris aparan struktur deyil, eyni zamanda tibb təhsilində strateji düşüncə, islahat və inkişaf üçün ideya mərkəzi (center of excellence) kimi fəaliyyət göstərməkdir.





# FƏALİYYƏT İSTİQAMƏTLƏRİMİZ

Bu strategiya TSET kafedrasının dayanıqlı inkişafını, tədris və tədqiqat sahəsində institusional güclənməsini və tibb təhsilində aparıcı mövqeyinin möhkəmləndirilməsini təmin etməyə yönəlib

## Tədrisin keyfiyyətinin artırılması

## Akademik heyətin peşəkar inkişafı

## Tədris mühiti, innovasiya və rəqəmsal transformasiya

## Elmi-tədqiqat, akademik fəaliyyət və davamlı inkişaf

## Beynəlxalq və institusional əməkdaşlıq

## Sosial məsuliyyət və cəmiyyətə töhfə

# TƏDRİSİN KEYFİYYƏTİNİN ARTIRILMASI




## Məqsəd

Tibb təhsilinin müasir standartlara uyğun tədrisini təmin etmək və tələbələrin nəzəri biliklərlə bərabər praktik bacarıqlarının inkişafını təmin etmək.

## Fəaliyyət istiqamətləri

1. Kompetensiya əsaslı tədris proqramlarının hazırlanması və modullaşdırılması;
2. Simulyasiya, OSCE/OSPI və digər obyektiv qiymətləndirmə metodlarının fəaliyyətə daxil edilməsi;
3. Tədris metodik vəsaitlərin hazırlanması (Azərbaycan və ingilis dillərində dərslik və resurslar);
4. Müasir təlim-tədris texnologiyalarından istifadə;
5. Tələbələrin praktik bacarıqlarının artırılması üçün qabaqcıl təlim metodlarının tətbiqi

# AKADEMİK HEYƏTİN PEŞƏKAR İNKİŞAFI



## Məqsəd

Akademik heyətin metodik və pedaqoji səriştəsinin yüksəldilməsi, beynəlxalq təcrübənin tətbiqi

## Fəaliyyət istiqamətləri

1. Akademik heyətin pedaqoji peşəkarlıq və liderlik proqramlarının təşkili;
2. Qiymətləndirmə və rəyvermə mədəniyyətinin gücləndirilməsi;
3. Ünsiyyət bacarıqlarının artırılması;
4. Akademik liderlərin yetişdirilməsi;
5. Mentorluq sisteminin qurulması;

# TƏDRİS MÜHİTİ, İNNOVASİYA VƏ RƏQƏMSAL TRANSFORMASİYA





## Məqsəd

Tədris və elmi-tədqiqat fəaliyyətləri üçün müasir, təhlükəsiz və effektiv mühit yaratmaq

## Fəaliyyət istiqamətləri

1. Simulyasiya və bacarıq laboratoriyalarının bazasının yenilənməsi;
2. Simulyasiya mərkəzləri, rəqəmsal tədris alətləri, VR/AR texnologiyalarının tədris prosesinə inteqrasiyası
3. Elektron tədris resurslarının və lisenziyalı proqram təminatının genişləndirilməsi;
4. Tədrisdə süni intellekt və müasir təhsil texnologiyalarından istifadə imkanlarının araşdırılması
5. Rəqəmsal tədris resurslarının və elektron platformaların inkişafı

# ELMİ-TƏDQİQAT, AKADEMİK FƏALİYYƏT VƏ DAVAMLI İNKİŞAF




## Məqsəd

Tibb təhsili sahəsində elmi fəaliyyətlərin artırılmaq və davamlı inkişaf üçün sistemli mexanizmlər qurmaq.

## Fəaliyyət istiqamətləri

1. Tibb təhsili üzrə araşdırmaların planlaşdırılması və icrası;
2. Daxili keyfiyyət təminatı mexanizmlərinin yaradılması;
3. Beynəlxalq indeksli jurnallarda nəşrlərin artırılması;
4. Beynəlxalq layihələrə qoşulma;
5. Qrant layihələri və multidissiplinar tədqiqat təşəbbüslərinin dəstəklənməsi;
6. Müəllimlərin beynəlxalq elmi və tədris fəaliyyətlərinə təşviqi
7. Tələbə rəylərinin sistemli toplanması və təhlili;

# BEYNƏLXALQ VƏ İNSTİTUSİONAL ƏMƏKDAŞLIQ



## Məqsəd

Beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirməklə beynəlxalq standartlara inteqrasiyanı gücləndirmək, qabaqcıl təcrübələrin mübadiləsini təmin etmək və kafedranın tədris, elmi-tədqiqat və pedaqoji potensialını inkişaf etdirmək

## Fəaliyyət istiqamətləri

1. Beynəlxalq tibb təhsili təşkilatları və universitetlərlə əməkdaşlığın genişləndirilməsi
2. Təcrübə mübadiləsi, birgə layihə, təlim və tədris proqramlarının həyata keçirilməsi
3. Elmi-tədqiqat və qrant əməkdaşlıqlarının inkişafı
4. Akademik mübadilə və mobillik imkanlarının genişləndirilməsi
5. Beynəlxalq təcrübənin tədrisə inteqrasiyası
6. Milli institusional əməkdaşlıqların gücləndirilməsi
7. Beynəlxalq tədbirlərdə təmsilçilik və nüfuzun artırılması
8. Beynəlxalq standart və akkreditasiya tələblərinə uyğunluğun təmin edilməsi

# SOSİAL MƏSULİYYƏT VƏ CƏMİYYƏTƏ TÖHFƏ




## Məqsəd

Cəmiyyətin real sağlamlıq ehtiyaclarını nəzərə alan, etik dəyərlərə əsaslanan və ictimai rifahın yüksəldilməsinə yönəlmiş sosial məsuliyyətli tibb təhsili modelinin təşviqi, tələbə və müəllimləri ictimai sağlamlıq, sağlamlıq savadlılığı və profilaktik yanaşmalar sahəsində fəal iştiraka cəlb etmək və tibb təhsilinin ictimai dəyərini və təsirini gücləndirmək.

## Fəaliyyət istiqamətləri

1. Cəmiyyətin sağlamlıq ehtiyaclarını nəzərə alan təhsil fəaliyyətlərinin təşviqi
2. Sosial yönümlü layihələr, maarifləndirmə və ictimai sağlamlıq təşəbbüslərində iştirak
3. Etik dəyərlərə və peşəkar davranışa əsaslanan təhsil mühitinin qorunması
4. Sağlamlıq savadlılığının artırılmasına yönəlmiş fəaliyyətlər
5. Tələbə və müəllimlərin ictimai fəaliyyətlərə cəlb edilməsi
6. Sosial təsirin qiymətləndirilməsi və monitorinqi
7. Dayanıqlı sosial tərəfdaşlıqların qurulması

# KAFEDRANIN ÜMUMİ HƏDƏFİ

Azərbaycan Tibb Universitetində və regionda tibb təhsili sahəsində nümunəvi akademik struktur olmaq, tələbə mərkəzli, keyfiyyətli və beynəlxalq standartlara uyğun tədris-təlim mühiti yaratmaq üçün fəaliyyət göstərmək.

